Füzuli: inama və qələbəyə aparan yol

Öz təbii mənzərəsi, gözəlliyi ilə seçilən, qədim tarixi və mədəniyyəti olan Füzuli rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin əsası 1992-ci ilə təsadüf edir. Müharibənin boz və murdar sifəti hemin vaxt daha çox özünü büruzə vermiş, doğma yurd yerlərimiz, kəndlərimiz erməni işğalına məruz qalmışdır. Füzuli rayonunun Yuxarı Divanalılar kəndi dekabrın 7-də (1991-ci il) ermənı-rus ordusu tərəfindən işğal edildi. Hərbi texnika ilə hücuma keçən basqınçılar kəndin bütün evlərini yandırmışlar. 12 nəfər kənd sakini isə əsir götürülmüşdür. Başqa bir fakta diqqət yetirək. Fevralın 21-dən 22-nə keçən gecə (1992) ermənilər rusların zirehli texnikası və piyada dəstələrinin köməyi ilə Füzuli rayonunun Yuxarı Veysəlli kəndini gecə saat 3-də mühasirəyə aldılar. Kəndin 100-dən artıq evi yandırılmışdır. 1000 nəfərdən artıq adam evsiz-eşiksiz qalaraq kəndi tərk etmişdir. Döyüş zamanı kənd sakinlərindən və onun müdafiəçilərindən 5 nəfər həlak olmuş, 20 nəfər yaralanmış, 16 yaşlı oğlan uşağı itkin düşmüşdür. Adamlar öz doğma ocaqlarını, evlərini tərk etmişlər. 1993-cü il avqustun 23-də isə Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri işğal edərək Arazboyu kəndlərə doğru irəliləyirdi. Düşmənə müqavimət göstərilsə də, cəbhədə əsaslı dönüş əldə olunmurdu. Insanların ümidi, inamı tükənmişdi, onlar cavabsız sualların altında qalmışdılar. İtkilər isə gündən-günə çoxalırdı.

Rayon icra hakimiyyətinin başçısı Ali Alıyev deyir:

- Sevinc və kədərimizin şahidi olmuş doğma Füzulini itirmək həmyerlilərim kimi məni də çox sarsıdıb. Adamlar ümidsizliyə qapılmış, cansıxıcı suallar qəlbimizi didirdi. Görəsən bu mağlubiyyətlərin qarşısı alınacaqmı? Erməni hücumlarının qarşısına sipər çəkiləcəkmi? Xalqımızın haqlı tələbi və təkidi ilə hakimiyyətə qayıdan ümumilli liderimiz Heydər Əliyev insanları düşündürən və narahat edən bütün suallara cavab tapdı. Hamının yaxşı yadındadır ki, belə ağır və təzadlı bir vəziyyətdə bütün baxışlar yalnız bir insana - ümummilli liderimiz Heydər Əliyevə dikilmişdi. Hamı bu dahi insandan imdad gözləyirdi. Ulu öndər xalqımızı bütün bəlalardan xilas etdi, onun fədakar xidməti sayəsində erməni silahlı qüvvələrinin hücumlarının qarşısına sipər çəkildi. İnsanların qəlbində inam baş qaldırdı. Öləzimiş ümidlər dirçəlməyə başladı. 1993-cü il dekabr ayının əvvəllərində Heydər Əliyevin bölgəyə səfəri, döyüşçülərlə və əhali ilə görüşləri heç də təsadüfi xarakter daşımırdı. 1994-cü ilin yanvar ayında Milli Ordumuz əks-hücuma keçərək düşmənə ağır və sarsıdıcı zərbələr vurdu. İşğaldan azad edilmiş və zərər çəkmiş ərazilərdə vəziyyət olduqca ağır və dəhşətli idi. Buna baxmayaraq, xalqımızın dahi oğlu Füzuli rayonunun dirçəlişi üçün çox böyük diqqət və qayğı göstərdi. Neft Fondundan ilk vəsaitə məcburi köçkünlər üçün qəsəbələrin salınmasına ayıran ulu öndər Heydər Əliyev həmin insanların qəlbində özünə əbədi bir abidə qurmuşdur.

İndi toxunacağım məsələ barəsində çox danışılıb, əsaslı fikirlər söylənəsə də, bir daha demək lazımdır ki, rəhbərə inam olmayanda, hakimiyyət səriştəli, təcrübəli lider əlində olmayanda insanlarda birinci ümid ölür, inamsızlıq baş qaldırır və ölkə dağılmağa doğru gedir. Məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi əhalidə yaranmış vahimeyə, inamsızlığa və ruh düşkünlüyünə birdəfəlik son qoydu.

İndi yadıma salanda düşünürəm ki, o ağır, çətin və təhlükəli günləri biz necə yaşamışıq?! Həmin ilin payızı və qışı ağır keçdi. Elə bil təbiət də insanları sınağa çəkmişdi. Yerli icra orqanları gecə və gündüz işləyir, əhalinin məskunlaşması üçün var qüvvəsini sərf edirdi. Respublikanın 50-dən artıq rayon və şəhərinə, 1500 kənd və qəsəbəsinə səpələnmiş həmyerlilərimizin adi şəraitdə yaşamaları üçün səy göstərir, onlara kömək edirdik. Hər cür çətinliyə sinə gərən əhalinin nikbinliyi daha çox diqqəti cəlb edirdi. Bu isə təsadüfi deyildi. Xalq öz taleyini möhtərəm Heydər Əliyevə etibar etmişdi. Onlar çox yaxşı bilirdilər ki, xalqımızı bu çətinliklərdən məhz ulu öndər Heydər Əliyev qurtaracaq. Məhz belə də oldu, cəbhədə atəşkəs elan olundu, dağılmış ölkənin, iqtisadiyyatın bərpasına başlanıldı.

Rayonumuzun hem iqtisadiyyatı, həm kənd təsərrüfatı, həm də xidmət sahələri indi öz inkişaf dövrünü yaşayır. İnsanların qəlbində gələcəyə böyük bir ümid yaranıb. Dövlətimizin başçısı cənab İlham Əliyevin Füzuli rayonuna səfəri, burada bir sıra obyektlərin açılışında iştirak etməsi, fəzululilərlə səmimi və yaddaqalan görüş keçirməsi hamımızın qəlbində dərin iz buraxıb. Dövlət başçısı məcburi köçkünlərin yaşadıqları ərazilərə sevinc, dinclik, əmin-amanlıq, dirçəliş və inkişaf gətirdi. Zobucuq qəsəbəsində orta məktəb binasının açılış mərasimində möhtərəm Prezidentimiz dedi: **"Yeni salınan qəsəbələr, yollar, yaradılan infrastruktur Azərbaycan xalqının xidmətindədir. Biz bu siyasətə sadiqik və onu bundan sonra davam etdirəcəyik. Çünki bizim üçün, ölkəmiz üçün sosial məsələlər, ilk növbədə ən ağır vəziyyətdə yaşayan insanların sosial vəziyyətinin yaxşılaşdırılması birinci dərəcəli məsələdir. Xüsusilə biz işğaldan əziyyət çəkən, ermənilər tərəfindən etnik təmizləmə siyasətinin qurbanları olan insanların bütün problemlərini həll etməliyik".**

Son bir neçə il ərzində Horadiz müharibədən zərər çəkmiş şəhərdən, mübaliğəsiz demək olar ki, yeni və müasir bir şəhər çevrilib. Horadiz hem də böyük tikinti meydançasını xatırladır. Diqqəti ən çox cəlb edəndə elə bu yeni tikintilərdir. Sakinlərin dediyi kimi indi Horadizin gecələri daha gözəl və füsunkar görünür. Əlbəttə, bu yenilləşmə, quruculuq, yaşıllıqların salınması, yolların, küçələrin təmir edilməsi, insanların rahatlığı üçün görülən bütün işlər dərin razılıqla qarşılanır.

İcra başçısı söhbət zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məşhur bir kəlamını diqqətə çatdırdı: "Uğurlarımızın təməlinə bir daha demək istəyirəm ki, həm iqtisadi siyasət, islahatlar, eyni zamanda, ölkədə mövcud olan ictimai-siyasi sabitlik, icra strukturlarındakı güclü nizam-intizam dayanır. Nizam-intizam olmadan, biz uğurlara nail ola bilməzdik."

Yarımillikdə rayonda ümumi məhsul buraxılışının həcmi 62257.3 min manat təşkil etmişdir ki, bu, əvvəlki ilin analoji dövrü ilə müqayisədə 6.1 faiz çoxdur. Bunun 5185.8 min manatı sənaye müəssisələrinin, 31152.1 min manatı isə kənd təsərrüfatının, 6022.1 min manatı tikinti-quraşdırma, 592.2 min manatı nəqliyyat, 189.8 min manatı informasiya və rabitə, 19125.3 min manatı isə pərakəndə ticarət dövriyyəsinin payına düşür. Ümumi məhsul buraxılışının əsasını sənaye, kənd təsərrüfatı və investisiyalar təşkil edir.

Rayon üzrə orta aylıq əmək haqqı 290,1 manat olub ki, bu da əvvəlki 2014-cü ilin eyni dövrü ilə müqayisədə 16.2 faiz artım deməkdir. Cari ilin yanvar-iyun aylarında rayon üzrə məşğul əhalinin sayı 66857 nəfər olmuşdur ki, bu da rayon əhalisinin 54.7 faizini təşkil edir.

Dövlət Proqramında rayonda cins heyvandarlıq, taxılçılıq, üzümçülük, tərəvəzçilik, meyvəçilik, toxumçuluq, tinqçilik sahələrinin inkişafı, iri taxılçılıq təsərrüfatlarının yaradılması, kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulub. Bundan başqa yaşayış məntəqələrində modul tipli su təmizləyici qurğuların quraşdırılması, rayon ərazisində kəndarası yolların tikintisinin, yenidən qurulmasının davam etdirilməsi, elektrik enerjisi təminatının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir. 20 ədəd artezian quyusunun qazılması, Horadiz şəhərinin müfəssəl planının hazırlanması və abadlıq-quruculuq işlərinin davam etdirilməsi də nəzərdə tutulub.

Artıq beşinci ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tonçu rayonları sırasındadır və taxıl istehsalçılarımız 100 min ton nəticəsini də son hədd hesab etmirlər.

Bulıki nəticələrimiz də yaxşı olub. 32,8 min hektar sahənin məhsulu çox qısa müddətdə biçilmiş və 111,2 min tondan çox taxıl istehsal olunub. Hər hektarın məhsuldarlığı 34 sentnerə yaxın olub.

Onu da bildirirəm ki, cənab İlham Əliyevin taxılçılığın inkişafına dair göstərişinə sonra rayonda yaradılmış toxumluq təsərrüfatından 60 sentnerə yaxın taxıl götürülüb. Taxılçılığın gələcək inkişafına inanırıq.

Rayonda heyvandarlığın inkişaf etdirilməsi və heyvandarlıq məhsulları istehsalı da diqqət mərkəzindədir. Hazırda rayonda 33 min baş qaramal, 129 min baş qoyun-quzu, 463 min baş ev quşları vardır. Cari ilin 6 ayı ərzində 1016 ton et, 10364 ton süd, 4180 milyon ədəd yumurta, 149 ton yun istehsal edilib.

Rayonda sahibkarlığın inkişafına ciddi fikir verilir. Son 4 ildə iş adamlarına yaradılmış şərait nəticəsində Əhmədbəyli kəndi ərazisinə 5 min ton kənd təsərrüfatı məhsulları saxlayan soyuducu anbar kompleksi, ildə 2,5 - 3 min ton quş əti istehsal edən "Qarabağ-Broyler" MMC fəaliyyətə başlamış, bu istiqamətdə səmərəli fəaliyyət göstərilir.

Heyvandarlığın apancı sahə olduğunu nəzərə alaraq ölkə başçısının tapşırıqlarına uyğun olaraq iş adamları rayonun Haramı adlanan hissəsində 5000 baş ətlik və südlük istiqamətində heyvandarlıq kompleksi və sutkada ilk növbədə 10 ton süd qəbul edəcək zavodun tikintisini başa çatdırmaq üzrədirlər. Üçüncü Zobucuq qəsəbəsində gündə 40 ton çörək-un məmulatları istehsal edən zavod istifadəyə veriləcək.

Dövlət Proqramına uyğun olaraq rayonun içməli və suvarma suyuna ehtiyac olan yaşayış məntəqələrində 22 ədəd, 2015-ci ilin birinci yarım ilində isə 12 ədəd artezian quyusu qazılaraq istifadəyə verilmişdir. Alıxanlı, Kürdmahmudlu, Sükürbəyli, İkinci Mahmudlu və Kərimbəyli kəndlərində 21 ədəd artezianın nasosu, 11 ədəd sayğac dəyişdirilib.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Füzuli rayonunda bir sıra tədbirlərin yerinə yetirilməsi nəzərdə tutulmuş, hazırda bu istiqamətdə işlər davam etdirilir.

Bu mühüm dövlət sənədində nəzərdə tutulmuş kəndarası yolların əsaslı təmir edilməsi istiqamətində xeyli işlər görülmüşdür. Keçən il iyulun 13-də ölkə başçısının sərəncamı ilə Əhmədbəyli-Yuxarı Kürdmahmudlu-Aşağı Kürdmahmudlu-Alıxanlı-Beşinci Zobucuq yaşayış məntəqələrini əhatə edən 21,8 km yol yenidən qurulmuşdur. Bundan başqa Bala Behmənli-Sənger-Araz Dilağarda-Araz Zərgər kəndlərini birləşdirən 7,1 km uzunluğunda yol əsaslı bərpa olunmuşdur. Həmin yollardan rayonun 25 min nəfər əhalisi istifadə edir. Təbii ki, bu da həmin əhalinin dərin razılığına səbəb olub.

Dövlət Proqramına uyğun olaraq rayonun 39 yaşayış məntəqəsinə təbii qaz çəkilişi müvəffəqiyyətlə davam etdirilir. İndiyədək Horadiz şəhəri Arayatılı, Babı, Mollaməhərrəmli, Sükürbəyli, Kərimbəyli, Böyük Behmənli kəndinin bir hissəsinə, Əhmədalılar kəndlərinə qaz xətti çəkilmişdir. İndi evlərdə mavi alov şölələnir. Vaxtı ilə əzab-əziyyət çəkmiş insanlar indi rahat və asudə nəfəs alırlar.

Dövlət Proqramında rayonunun yaşayış məntəqələrinin su tachizatının yaxşılaşdırılması da nəzərdə tutulmuşdur və bu istiqamətdə əsaslı işlər həyata keçirilmişdir. Belə ki, "Azərsu" ASC tərəfindən Horadiz şəhərində, Araz Dilağarda, Aşağı Yağlıvənd və Arayatılı kəndlərinin əhalisinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə 10 ədəd artezian quyusu qazılmış və istifadəyə verilib.

Bundan başqa respublika Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən Dövlət Proqramına uyğun olaraq 8 yaşayış məntəqəsində 20 ədəd suvarma məqsədilə artezian quyusu qazılıb istifadəyə verilmişdir.

Dövlət başçısının diqqət və qayğısayəsində Horadiz şəhərində ölkəmizdə analoqu olmayan, milli memarlıq ənənələrini özündə yaşadan mədəniyyət sarayı tikilmiş və istifadəyə verilmişdir.

İcra başçısının sözünə qüvvət üçün qeyd edək ki, şəhər statusu almasının dörd yaşı tamam olan Horadizdə iki hektar ərazini əhatə edən Heydər parkı yenidən qurulmuş və burа adamların sevimli istirahət güşəsinə çevrilmişdir. Qısa müddətdə ərəndə şəhərdə Heydər Əliyev mərkəzi, Şahmat məktəbi, Mədəniyyət sarayı tikilmişdir.

Heydər Əliyev Fondunun köməyi ilə şəhərdə üçüncü orta məktəb, Gənclər evi tikilir. Şəhər əhalisi diqqət və qayğısına görə Azərbaycanın birinci xanımı, nəcib və xeyirxah əməllərі ilə dünyada tanınan Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirir və bu xeyirxah əməllari razılıqla qarşılayırlar.

Yuxarıda qeyd etdiyimiz kimi Horadiz şəhəri başdan-başa dəyişib. Küçələr, səkilər, xidmət obyektləri, işıqlandırma sistemi, park və xiyabanlar, hərəkətin təhlükəsizliyinin təmin edilməsi və ümumiyyətlə göze görünən hər şeyi dəyişmiş, gözəlləşmişdir. Horadizlilər haqqlı olaraq indi öz şəhərləri ilə fəxr edirlər.

Bir daha qeyd etmək lazımdır ki, rayonda apanılan tikinti-quruculuq işlərinin miqyası geniş və əhatəlidir. Qısa müddətdə Gecəgözlü yatağında yeni məktəb, Kərimbəyli kəndində uşaq bağçası, Birinci Mahmudlu kəndi yaxınlığında 5 min ton tutumu olan soyuducu anbar, Bala Behmənli kəndi ərazisində 25 meqavatlıq su elektrik stansiyası istifadəyə verilib. Dövlət başçısının göstərişi ilə inşa olunan su elektrik stansiyası bölgənin enerji ilə təchizatını yüz faiz təmin edir.

Füzulinin Ermənistan tərəfindən işğal edilməsinin 22 ili tamam olur. Ötən bu illər ərzində fəzululilər üçün tək və köməksiz hiss etməyiblər. Onlar ən ağır dəqiqələrdə belə dövlətin qüvvəsini hiss edib-gücünü, qayğı və diqqətini hiss edib-lər. Elə sabaha olan ümidlər də məhz bu inam üstündə köklənib.

Kiminlə həmsöhbət olduqsa, hamının mövqeyi birmənalı oldu. Torpaqlarımız nəyin bahasına olursa-olsun İşğalçılardan azad olunacaqdır. Dövlətimiz öz gücünü və iqtisadi qüdrətini günbəgün artırır. Ordu quruculuğu davam etdirilir. Indi Azərbaycanın müasir silahlara malik güclü, çevik və peşəkar bir ordusu vardır. Xalqla ordunun birliyi möhkəm xarakter daşıyır. Dövlətimizin başçısı cənab İlham Əliyevin siyasəti ümid verir ki, İşğalçılar torpaqlarımızdan çıxarılacaqdır.

Axşamüstü Horadizdən ayrıldıq. Güneş öz şəfeqlərini yığışdırıb dağların arxasına çəkilirdi. Vaxtıla silahların danışdığı bu yerlərdə indi əmin-amanlıq və sakit həyat bərqərar olub. Adamlar sabaha daha böyük ümidlə baxırlar...

Salman ALIOĞLU.